**AZƏRBAYCAN QANUNVERİCİLİK YENİLİKLƏRİ*** **APREL 2014**
**KORPORATİV HÜQUQ**

## LƏĞVETMƏ PROSEDURALARINA DƏYİŞİKLİK EDİLİB

2013-cü ilin noyabr ayında Azərbaycan Respublikası Mülki Məcəlləsinə və Azərbaycan Respublikasının "Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı və Dövlət Reyestri" haqqında Qanununa dəyişiklik edilmişdir. Qeyd edilən dəyişikliklər 2013-cü ilin dekabr ayında qüvvəyə minmiş və hüquqi şəxslərin ləğvi prosesinə (ləğv və qeydiyyatdan çıxarılma) təsir etmişdir.

**Borcların Təmin Edilməsi**

Hüquqi şəxs iştirakçıların/səhmdarların qərarına və ya nizamnamə ilə səlahiyyət verilmiş orqanın qərarına əsasən ləğv edilirsə, iştirakçılar/səhmdarlar və ya nizamnamə ilə buna səlahiyyət verilmiş orqan tələb etməlidirlər ki, hüquqi şəxsin idarə heyəti onun kreditorlarının tələblərini ləğvetmə prosesinin başlanmasından on iki ay ərzində təmin etmək qabiliyyətini barədə qərar qəbul etsin.

İdarə heyəti tələb olunan qərarı ləğvetmə haqqında qərarın qəbul olunmasına 20 gün qalmışa qədər verməlidir. Əgər idarə heyəti belə qərar qəbul edə bilməzsə, bu zaman ləğv edilən şirkətin öz kreditorlarının tələblərini təmin etmək bacarığının olduğunu yoxlamaq üçün müstəqil auditor cəlb oluna bilər.

**Vaxt Məhdudiyyəti**

Ləğvetmə prosedurana vaxt məhdudiyyətləri tətbiq olunur və əgər ləğvetmə bir il ərzində sona çatdırılmazsa, proses yenidən başlanmalıdır.

**Ləğvetmə haqqında Qərar**

Ləğvetmə haqqında qərarla bağlı müddəalar təqdim olunmuşdur. Qərarla ləğvetmə komissiyası yaradılmalıdır. Bununla da ləğvetmə prosesinə başlanır. Ləğvetmə prosesi zamanı hüquqi şəxs hüquq qabiliyyətini tam saxlayır.

Hüquqi şəxsi iştirakçıları və onun səlahiyyətli orqanı yalnız ləğvetmə prosesində ləğvetmə komissiyasının səlahiyyətlərini yerinə yetirirlər, ləğvetmə komissiyası isə hüquqi şəxsi məhkəmələrdə təmsil edir. Ləğvetmə komissiyası qalan borcların ödənilməsi və qalıq balansının (əgər qalarsa), şirkətin iştirakçıları arasında bölüşdürmək üçün hüquqi şəxsin aktivlərinin satılması üçün məsuliyyət daşıyır.

Qeyri-kommersiya hüquqi şəxsinin qeydiyyatının ləğvi zamanı (ictimai birlik, fond və hüquqi şəxslərin ittifaqı) borclar ödənildikdən sonra qalan məbləğ qeyri-kommersiya hüquqi şəxsinin nizamnaməsində müəyyən olunmuş məqsədlər üçün istifadə olunur və əgər bu mümkün olmazsa, balans dövlət büdcəsinə köçürülür.

**Ləğvetmə Prosesi**

Təyin olunduqdan 10 gün ərzində ləğvetmə komissiyası ləğvetmə prosesi haqqında və kreditorların öz tələblərini təqdim etmə prosesi və vaxtı haqqında ilkin məlumatı nəşr etdirməlidir. Həmin məlumat yenidən 15-20 gün intervalı ilə daha iki dəfə çap edilməlidir. Kreditorların öz tələblərini təqdim etmək üçün müddət ilkin çapdan 60 gündən az olmamalıdır.

Təyin olunduqdan 15 gün ərzində ləğvetmə komissiyası ləğvetmə komissiyası aşağıda qeyd olunan sənədləri hüquqi şəxslərin dövlət qeydiyyatı üçün məsuliyyət daşıyan dövlət orqanına təqdim etməlidirlər:

– ləğvetmə haqqında qərar;

– kreditorları təmin etmək qabiliyyəti haqqında qərar;

– müvafiq ləğvetmə haqqında məlumatın dərc olunmasını təsdiq edən sənəd; və

– korporativ möhür.

Müvafiq icra hakimiyyəti orqanı yuxarıda qeyd olunan sənədləri aldıqdan 5 gün ərzində müvafiq məlumatı dövlət reyestrinə daxil etməlidir. Bundan sonra, ləğvetmə prosesində hüquqi şəxs öz sənədlərində "ləğvetmə prosesindədir" sözləri üzərində əks olunmuş xüsusi möhürdən istifadə etməlidir.

Ləğvetmə komissiyası kreditorun tələbi ilə razılaşmadıqda, kreditor məhkəməyə iddia ərizəsi ilə müraciət edə bilər və məhkəmə prosesinin davam etdiyi müddətdə kreditorun tələb etdiyi məbləğin üzərinə həbs qoyulur.

Kreditorların öz tələblərini irəli sürmək müddətinin başa çatmasından 10 gün ərzində ləğvetmə komissiyası müvəqqəti balansı təsdiq etməlidir. Müəssisənin nizamnamə kapitalının azı 10 faizinə sahib olan iştirakçı müvəqqəti balansla razılaşmazsa, müvəqqəti balansı əldə etdikdən 7 gün ərzində ümumi yığıncağın iclasını çağırmaq hüququna malidir. Belə olduğu halda, müvəqqəti balans ümumi yığıncaq tərəfindən təsdiq olunmalıdır.

Bütün kreditorların tələbləri təmin olunduqdan sonra ləğvetmə komissiyası ləğv edilmiş aktivləri müəssisənin iştirakçıları arasında bölüşdürməklə bağlı plan hazırlamalıdır. Ləğvetmə ilə bağlı bölüşdürülmənin təsdiq olunmasından 10 gün ərzində ləğvetmə komissiyası qalan aktivləri ləğvetmə planına uyğun olaraq ötürməlidir.

Ləğvetmə aktivlərinin paylanmasından 10 gün ərzində ləğvetmə komissiyası müvafiq dövlət orqanına bölünməyə dair sənədləri və digər sənədləri (qeydiyyat şəhadətnaməsi, nizamnamə, "ləğvetmə prosesindədir" sözləri əks olunmuş möhür) təqdim etməlidir. Müvafiq məlumat reyestrə daxil edildikdən sonra hüquqi şəxs ləğv olunmuş hesab edilir.

Hüquqi şəxs ləğv olunduqdan sonra yaranan istənilən öhdəliklər ləğvetmə prosesinin bərpa olunmasına əsas deyil.

**İSTƏNİLƏN SUAL VƏ ƏLAVƏ MƏLUMAT ÜÇÜN BİZİMLƏ ƏLAQƏ SAXLAYIN:**

**BM Morrison Partners**
**Tel: (994 12) 497 19 14; 497 19 15**
**Faks: (994 12) 497 19 13**
**E-mail: info@bmlawaz.com**

©2014 BM Morrison Partners. Bütün hüquqlar qorunur.

* Nəşrimizdə olan məlumat hüquqi və ya digər peşəkar məsləhət təşkil etmir.